

## 31 iyul-Qurban Bayramı Günüdür

# Müqəddəs ayin, müqəddəs mərasim

İslam dini qardaşlıq, ədalət, birlik, sevgi, şəfqət dinidir. Bu duyğuların ən geniş şəkildə yaşandığı günlərdən biri də Qurban bayramıdır. Qurban bayramı müsəlmanlar arasında ən geniş yayılan ayindir. O, Qurbanın müəyyən etdiyi dini tələb, müsəlmanların riayət etdiyi ümumi mərasimdir.

Üç səmavi dinin-yəhudilik, xristianlıq və islamın hər üçündə müxtəlif formada qurbanlıq mövcuddur. Ancaq İslam dinində bu ayın xüsusi mahiyyət və əhəmiyyət kəsb edir. Onun əsasında Allaha sonsuz sevgi, onun qüdrətinə dərin inam və iman işığı durur.

İslam dini ərəb tayfalarının həmişə icra etdikləri qurban vermək adətinə müqəddəslik mahiyyəti verərək, onu Qurban bayramı adlandırıb müsəlmanlığın əsas tələblərindən birinə çevirdi. Qurban bayramı hər il hicri tarixi üzrə Zilhiccə ayının 10-da keçirilir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanununa əsasən Qurban bayramı ölkəmizdə də dövlət səviyyəsində bayram edilir.

Qurban kəsilmə vaxtı Qurban Bayramının I, II və III günləridir. Bayramın I günü qurbanın kəsilməsi daha fəzilətlidir.

Qurban bayramı müsəlman ruhaniləri tərəfindən İbrahim Peyğəmbərin (Ə) öz oğlu İsmayılı Allahın şərəfinə qurban kəsmək niyyətini bildirən hadisə ilə əlaqələndirilir. Allah öz sevimlisi İbrahim Peyğəmbərin sadiqliyini sınamaq üçün ondan yeganə oğlu İsmayılı qurban kəsməyi tələb edir və İbrahim Peyğəmbər (Ə) gözünü qırpmadan oğlunu yerə yıxıb başını kəsərkən, Allahın göndərdiyi mələk Cəbrayıl (Ə) göydən enib onun əlini saxlayır. Allahın İbrahimdən (Ə) razı qaldığını bildirib və oğlu İsmayılın əvəzinə Tanrının göndərdiyi qoyunu kəsməyi təklif edir. Buna görə də, bu bayramda kəsilən qurbana "İsmayıl qurbanı" da deyirlər. Bu hadisənin başqa bir fəlsəfi mənası ondan ibarətdir ki, dinimizdə insanın Allah yolunda qurban kəsilməsi qəbul olunmur. Çünki insan Allahın yaratdığı ən şərəfli və ən üstün məxluqdur.

Qurbanlar bayram namazı qılındıqdan sonra kəsilir. Qurbanlıq heyvanı kəsərkən haqq vermək və almaq düzgün deyil.

"Allah sizə ancaq ölü heyvanı, donuz ətini və Allahın adı çəkilmədən kəsilmiş heyvanı haram buyurmuşdur". (Nəh, 115).

Şəriətə görə qurbbanlıq heyvanın qüsuru olmamalı və onu kəsən bıçağa xüsusi qurban duası oxunmalıdır. Qurbanlıq heyvan ən azı altı aylıq olmalıdır. Ancaq dana və yaxud dəvənin bir yaşı tamam olduqdan sonar qurban kəsilməsi daha yaxşıdır. Bir qurbanlıq heyvan yeddi dindarın adından kəsilə bilər, lakin fərdi qurban daha savablı sayılır.

Qurban sahibi qurban kəsildikdən sonra iki rəkət namaz qılaraq istəyini Allaha bildirməlidir.

Qurban edilən heyvanın əti üç yerə bölünməlidir: bir qismi qurban sahibi və ailə üzvləri, bir qismi qohum-əqraba, dost-tanış, bir qismi isə imkansızlar üçün nəzərdə tutulmalıdır. Qurban ətinin hamısını sədəqə olaraq paylamaq da düzgün deyil.

Bayram günlərində həmçinin küsülüləri barışdırmaq, xəstələrə və böyüklərə baş çəkmək, dünyasını dəyişənləri ziyarət etmək, uşaqları sevindirmək, bayram gecələrini isə ibadətlə keçirmək lazımdır.

Qurban bayramının əsas mahiyyəti Allah yolunda kəsilmiş heyvanın ətini Allahın imkansız bəndələri ilə bölüşmək, onları sevindirmək və sevincinə şərik olmaqdır. Beləliklə, bu bayram insanlara qarşı həm də xeyirxahlıq, paklıq, Allaha inam və sevgini ifadə edir.

**Ağahüseyn TAHİROV**
**Qəbələ şəhər sakini.**

# Paşinyanı iflasa aparan yol

2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə dövlət sərhədinin Tovuz rayonu istiqamətində Azərbaycan silahlı qüvvələrinin mövqelərinə hücum etməsi təcavüzdür, güc tətbiq etmək aktıdır və növbəti təxribatdır.

Ermənistan hərbi bölmələrinin Azərbaycan-Ermənistan sərhədində növbəti təxribatı Ermənistan hakimiyyətinin həm beynəlxalq ictimaiyyətin diqqətini aktual məsələlərdən yayındıraraq fərqli istiqamətə yönəltmək, həm də ölkə daxilində müşahidə olunan ciddi gərginliyi azaltmaq məqsədi güdür.

Azərbaycanın beynəlxalq mövqelərinin daha da güclənməsi, ölkəmizin diplomatik uğurları, dövlət başçımızın irəli sürdüyü təşəbbüslərin beynəlxalq arenada əsaslı şəkildə dəstəklənməsi, o cümlədən ölkəmizin sədrlik etdiyi Qoşulmama Hərəkatının Zirvə toplantısının geniş rezonans doğurması, Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasının xüsusi iclasının keçirilməsi barədə qərar qəbul edilməsi erməni lobbisini, xarici ermənipərəst dairələri, Azərbaycanı istəməyən xarici qüvvələri ciddi narahat edir. Həmin qüvvələr Azərbaycanı zəiflətmək üçün hərbi təxribatlara əl atırlar. Ermənistan hakimiyyəti aranı qatmaq üçün müxtəlif cəhdlər edir. Növbəti təxribatla o, həm beynəlxalq ictimaiyyətin diqqətini aktual məsələlərdən yayındıraraq fərqli istiqamətə yönəltmək, həm də ölkə daxilində müşahidə olunan ciddi gərginliyi azaltmaq məqsədi güdür. Nikol Paşinyan daxildə xalqın get-gedə ondan üz döndərdiyinin və xalqın problemlərini həll etmək imkanından məhrum durumda olmasının fərqindədir. Azərbaycanla sərhəddə hərbi təxribat törətməklə xalqın diqqətini daxili problemlərdən yayındırmaq istəyir. Ciddi sosial-iqtisadi problemlər, korrupsiya, koronavirusla mübarizə sahəsində saysız-hesabsız problemlər, insan hüquq və azadlıqlarının boğulması, siyasi opponentlərə, azad sözə qarşı repressiyaların tətbiq edilməsi Paşinyan hakimiyyətini çox mürəkkəb duruma salıb. Azərbaycanla sərhəddə təxribat Paşinyan hakimiyyətinə xarici düşmən mövzusunu qabartmağa və öz səriştəsiz idarəçiliyinin yaratdığı problemləri gündəmdən çıxartmağa hesablanıb.

Paşinyan hesab edir ki, xarici təhlükə qarşısında cəmiyyəti toparlamaq, müxalifəti tərk-silah etmək və hakimiyyətə qarşı formalaşan ciddi təhlükəni aradan qaldırmaq mümkün olacaq. Lakin yanılır. Necə ki, 2016-cı ilin aprelində Ermənistanın hücumunun Azərbaycan Ordusu tərəfindən darmadağın olunması və Ermənistan ordusuna sarsıdıcı zərbə endirilməsi Serj Sarkisyan hakimiyyətini laxlatdı və az sonra dağıtdı, indi də Paşinyan iqtidarı bu taleni yaşayacaqdır.

Hazırda Ermənistanda vəziyyət olduqca mürəkkəbdir, hakimiyyətə qarşı müxalifətin vahid cəbhədə birləşməsi prosesi gedir. Paşinyanın belə təxribatlarla problemi aradan qaldırmaq cəhdlərinin hər hansı nəticə verəcəyini düşünmək üçün heç bir əsas yoxdur. Hərbi təxribatlar onun hakimiyyətinin sonunu daha da yaxınlaşdırır.

Növbəti dəfə uğursuzluğa düçar olan Ermənistan hakimiyyəti indi də məsələnin mahiyyətini gizlətməyə, yalan məlumatlarla beynəlxalq və yerli ictimaiyyəti çaşdırmağa çalışır. Ermənistan hakimiyyətinin uydurmaları, Tovuz istiqamətində ölənlər haqqında məlumatların gizlətməsi Ermənistan ictimaiyyətində ciddi narazılıq doğurub. Artıq Ermənistanda etiraz aksiyalarına başlanılıb, fəallar sosial şəbəkələrdə Ermənistan hakimiyyətini ciddi tənqid edirlər. Paşinyan erməni əsgərlərini öz siyasi məqsədləri üçün qırğına verməkdə günahlandırılır. Paşinyan hakimiyyəti xalqı sakitləşdirmək üçün növbəti yalanı xalqa sırımağa çalışır. Guya Azərbaycanın hərbi bölmələrinin mövqeyini ələ keçirdikləri barədə yalanı tirajlayırlar. Ermənistan hakimiyyətinin guya Azərbaycan hərbi bölmələrinin mövqeyini ələ keçirməsi, yeni yüksəkliklər əldə etməsi barədə iddialar yalan və dezinformasiyadan başqa bir şey deyil. Hətta bu ölkənin ictimaiyyəti, fəal sosial şəbəkə istifadəçiləri belə bu kimi iddiaları ironiya ilə qarşılayırlar. Artıq Paşinyanın yalanlarına inanmırlar.

Ciddi sosial-iqtisadi böhran, korrupsiya, koronavirusla mübarizə istiqamətində çoxsaylı problemlər, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsindəki böyük nöqsanlar Paşinyan hakimiyyətinin bu cür təxribat xarakterli addımlarla, o cümlədən bu il işğal edilmiş ərazilərdəki qondarma "seçkilər" vasitəsilə özünə vaxt qazanmasını tamamilə qeyri-mümkün etdi. 12 iyul təxribatı isə erməni baş nazirin özünü doğrultmayan son ümidi adlandırıla bilər.

Regionun üzərində damokl qılıncı kimi dayanan genişmiqyaslı hərbi əməliyyatlar hər növbəti gün daha da real təhlükə xarakteri alır. Təhlükənin aradan qaldırılmasının yeganə effektiv üsulu isə hər kəsə məlumdur - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həllinin təmin olunması, işğalçı qoşunların qeyri-şərtsiz və tamamilə Azərbaycanın ərazisindən çıxarılmalıdır. ATƏT-in Minsk qrupunun həmsədr ölkələri də bu reallığı qəbul edərək işğalçı Ermənistana eyni çağırışla müraciət etməlidir. Bu gün yenə də ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin tərəfləri atəşkəsə əməl etməyə səsləməsi növbəti mənasız və "dişsiz" bəyanatdan başqa bir şey deyildir və bu bəyanat Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinə və işğala son qoyulmasına xidmət etmir. Ona görə də bundan sonrakı hadisələrin bütün məsuliyyəti işğalçı Ermənistanın və onun havadarlarının üzərində qalır.

İyulun 12-də baş vermiş hadisə Azərbaycan ictimaiyyəti tərəfindən hiddətlə qarşılanıb. Sosial şəbəkələrdə hərbi əməliyyatlara başlamaq, sıravi vətəndaşların toplanaraq cəbhə bölgəsinə getmək, silaha sarılaraq torpaqlarımızı işğaldan azad etmək kimi çağırışlar səslənməkdədir. Bu, Azərbaycan cəmiyyətində vətənpərvərlik hissinin yüksək səviyyədə olduğunu nümayiş etdirir. Lakin indi 1990-cı illərin əvvəlləri deyil ki, nizami ordu olmadığına görə vətəndaşlar öz gücünə torpaqlarımızı müdafiə etmək məcburiyyətində qalsınlar. Bu gün Azərbaycanın müasir silahlarla, texnika ilə təchiz edilmiş, regionun ən güclü nizami ordusu var. Bu ordu düşmənin istənilən təxribatına cavab verməyə və torpaqlarımızı azad etməyə qadirdir. Ordumuza güvənirik. Arzuolunmaz xaotik təşəbbüslər yalnız düşmənlərimizi sevindirə, ölkəmiz, silahlı qüvvələrimiz haqqında uydurmaların daha da genişləndirməyə imkan yarada bilər. Buna görə də bəzi sosial şəbəkə istifadəçilərinin silaha sarılmaq və cəbhə bölgəsinə getmək çağırışları, ayrı-ayrı şəxslərin cəbhə xəttinə yürüş təşkil etmək cəhdləri yolverilməz və qəbulolunmazdır. Güclü Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə qarşısına qoyulan istənilən vəzifəni yerinə yetirməyə, o cümlədən torpaqlarımızı işğaldan azad etməyə hazırdır və buna qadirdir.

**"Qəbələ"**

# Tarixi yazanlar əbədi yaşar

Ölkənin, xalqın tarixini şəxsiyyətlər yaradır. Hər bir şəxs cəsarətin, mərdliyin zirvəsinə yüksəldikdə qəhrəmana çevrilir. Elə qəhrəmanlara ki, onlar vətən, torpaq təəssübü çəkir, millətini, xalqını o qədər sevirlər ki, onlar uğrunda gözlərini qırpmadan canlarından keçməyə hazırdırlar. Hətta rütbələrinin onlara verdiyi imtiyazları heçə sayaraq hər zaman ön cəbhədə vətən keşiyində düşmənə sinə gərən əsgərlərimizlə çiyin-çiyinə mübarizə aparan igid, qeyrətli vətən oğullarımız var bizim. Tarixən də olub...Bəşər tarixinin ən qanlı savaşı sayılan İkinci Dünya müharibəsində faşizmə qarşı çarpışan qəhrəmanlardan biri elə Azərbaycan övladı, iki dəfə Sovet İttifaqı Qəhrəmanı olmuş general-mayor Həzi Aslanovdur. Ona Sovet İttifaqı Qəhrəmanı adı cəbhə komandanlığının döyüş tapşırığını nümunəvi surətdə yerinə yetirdiyinə, ona tabe olan hissələrə bacarıqla və mətanətlə komandanlıq etdiyinə, ümumiyyətlə, Böyük Vətən müharibəsi cəbhələrində göstərdiyi şəxsi igidlik və qoçaqlığa görə 1942-ci ilin dekabrın 22-də verilmişdir. 1944-cü ilin martın 13- də isə ona tank qoşunları general-mayoru rütbəsi verilmişdir. Həzi Aslanov hücum döyüşlərində 8 dəfə Ali Baş Komandanlıq tərəfindən təşəkkür almış, saysız orden və medallarla təltif edilmişdir.

Şübhəsiz ki, azərbaycanlı gənc generalın bu uğurları mənfur erməni xislətini qıcıqlandırmaya bilməzdi və ele ona görədir ki, Həzi Aslanov 1945-ci ildə 24 yanvar tarixində Mitava şəhəri yaxınlığında müəmmalı şəkildə uzaqdan açılan zenit qurğusunun

(Ardı 5-ci səhifədə).